# Türkiyə ilə strateji tərəfdaşlıq Azərbaycanın ordu quruculuğunda önəmli rol oynayır

***Qardaşlıq missiyasını layiqincə yerinə yetirən Türkiyə, onun Prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsində daim Azərbaycanın–haqq-ədalətin yanında olub. Vətən müharibəsində Türkiyənin müdafiə və xarici işlər nazirləri, digər yüksək vəzifəli rəsmiləri tərəfindən də Azərbaycana birmənalı olaraq siyasi, diplomatik dəstək göstərilib. Bu, ölkəmiz tərəfindən xalqımıza çox böyük mənəvi güc vermək kimi dəyərləndirilib.***

Bəli, Türkiyə Vətən savaşı zamanı Azərbaycana diplomatik müstəvidə, informasiya mübarizəsində, mənəvi dəstəkdə tək buraxmayıb. Təbii ki, belə bir şəraitdə ölkəmizin müharibədə uğurlu əməliyyatlar aparmasına, torpaqlarımızın 30 illik işğaldan azad edilməsini qısqanan bəzi dövlətlər tərəfindən yalan, böhtan xarakterli məlumatlar yayılıb. Lakin həmin vaxt informasiya savaşında da üstülük əldə edən Azərbaycan bu fitnəkarlığın qarşısını tutarlı cavablarla alıb.

Yeri gəlmişkən, xatırladaq ki, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Prezidenti İlham Əliyev "CNN International" televiziya kanalına verdiyi müsahibədə jurnalistin–"Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?"–sualına cavabında da bildirirdi ki, bəli, Azərbaycan Silahlı Qüvvələrində türk avadanlığı var, amma türk qüvvələri yoxdur: "Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki onun sizdən eşitdiyim sözləri tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər".

Türkiyə savaş bitəndən sonra da respublikamızla əlaqələrini, mənəvi, diplomarik münasibətlərini daha da gücləndirib. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən möhtəşəm Zəfər paradında, "Şuşa Bəyannaməsi"nin imzalanması mərasimində, eləcə də Azərbaycana səfəri çərçivəsində Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında Qarabağın xilası, bərpası istiqamətində görülən işlərdən yaranan sevincini, fərəhini xalqımızla bölüşüb, ölkəmizin əvvəlki kimi tək olmadığını, arxasında dayandığını bütün dünyanın diqqətinə çatdırıb. Bütün bunlar isə Azərbaycan xalqını uğur müjdəli gələcəyə daha da ruhlandırıb.

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin möhkəmlənməsində dövlətlərimizin başçılarının şəxsi dostluq əlaqələrinin və qarşılıqlı səfərlərinin xüsusi əhəmiyyəti var. Dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud dostluq və qardaşlıq münasibətləri ikitərəfli əlaqələrimizin, o cümlədən, hərbi əməkdaşlığın daha da genişlənməsinə öz müstəsna töhfəsini verir.

Türkiyə müharibədən sonra Qarabağda təhlükəsizliyin təmin olunması və nəzarətdə saxlanılması prosesinə də dəstəyini verir. Bu gün Ağdam rayonunun Mərzili kəndi yaxınlığında Rusiya–Türkiyə Monitorinq Mərkəzi fəaliyyət göstərir.



Əlbəttə, birgə Monitorinq Mərkəzinin fəaliyyəti bölgəmizin sabitliyini qorumaq üçün çox önəmli amildir. Mərkəz pilotsuz uçuş aparatlarından da istifadə edərək monitorinqlər aparır.

Azərbaycan Ordusunun silahlanmasına önəmli təsir göstərən "Baykar" şirkətinin istehsal etdiyi pilotsuz uçuş aparatlarının (PUA) hərbi potensialımızı əhəmiyyətli dərəcədə gücləndirməsi də bu fikrin bariz ifadəsidir. Həmin PUA-ların Vətən müharibəsində səmərəli tətbiqi nəticəsində düşmənə ciddi zərbə vurulması, işğalçının xeyli sayda canlı qüvvəsi və döyüş texnikasının məhv edilməsi də önəmli fakt kimi diqqət çəkir.

Azərbaycan Prezidenti İlham Əliyev ötən il aprelin 1-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edərkən də bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı görüşdə qardaş ölkənin müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunaraq, Selçuk Bayraktarın bu uğurların önündə getdiyini vurğulayıb, "Baykar" şirkətinin istehsalı olan məhsulların torpaqlarımızın düşməndən təmizlənməsi zamanı işğalçı texnikasının məhv edilməsindəki rolunu vurğulayıb.

Bu amil Türkiyədə müdafiə sənayesinin yüksək sürətlə inkişafından xəbər verir. Artıq dünya üçün sirr deyil ki, Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan da Vətən müharibəsində məharətlə istifadə edərək, böyük üstünlük qazanıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarı "Qarabağ" ordeni ilə təltif edib.

Burada diqqətçəkən bir hadisəyə də nəzər salmaq istərdik. Dünən Bakıda başlayan "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı Türkiyənin Sənaye və Texnologiya Nazirliyinin, eləcə də Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" (T3) Vəqfinin təşkilatçılığı ilə keçirilir. İlk dəfə xaricdə – Azərbaycanda təşkil olunan bu tədbir 2018-ci ildən etibarən hər il reallaşdırılır. Qlobal bazarlara çıxış potensialı olan startapçılar, yerli və əcnəbi mentorların, xarici ölkə investorları və vençur fondların iştirak etdikləri festival çərçivəsində "SMART QARABAĞ" Hakatonu da keçirilir. Hakatonun məqsədi işğaldan azad edilmiş ərazilər üçün "ağıllı" şəhər, kənd, ev təsərrüfatı, nəqliyyat və s. həllərin yaradılmasıdır.

Festivaldan bir gün əvvəl "Baykar Texnologiya"nın rəhbəri Səlcuk Bayrakdarın Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiG-29 qırıcı təyyarəsi ilə uçması da ordumuzun gücləndirilməsinə göstərilən dəstəyin bariz ifadəsidir. Xatırladaq ki, həmin MiG-29 "Baykar" şirkəti tərəfindən hazırlanan "Bayraktar AKINCI TİHA" ilə paralel uçuş həyata keçirməsi qardaş Türkiyənin Azərbaycan Silahlı Qüvvələrinin daha da inkişafına yönələn marağın bir nümunəsidir.

Yeri gəlmişkən, Bakıda "Teknofest" festivalının "prodakşn" ofisi fəaliyyət göstərir və bu mərkəzin tam heyəti azərbaycanlı mütəxəssislərdən ibarətdir. Məqsəd Türkiyədə aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

"Baykar" şirkətinin texnoloji lideri, "T3 Vəqfi" qəyyumlar şurasının sədri Səlcuk Bayraktar jurnalistlərə açıqlamasında bildirib ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi zəfər əldə etməsində dron zərbələri də önəmli rol oynayıb. Bu gün "Teknofest" festivalının qardaş ölkədə keçirilməsinə qərar verilməsi də Azərbaycanla Türkiyənin birliyini gücləndirmək, texnologiyanı birlikdə inkişaf etdirmək, dost respublikada hərbi texnologiyanın inkişafını diqqətdə saxlamaq niyyətindən irəli gəlib.

***Vətən müharibəsi baş verəndən dərhal sonra Türkiyənin mənəvi və diplomatik dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə – Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Ermənistan istər işğal dövründə, istərsə də Vətən müharibəsindən ötən bir ildən çox bir müddətdə vəhşi əməllərindən əl çəkməyib, vaxtaşırı ərazi iddialarını səsləndirib, müxtəlif gizli məqsədləri naminə terror cinayətləri törədib. Bütün bunlar isə Azərbaycanı daim ayıq-sayıq dayanmağa, müdafiə sistemini möhkəmlətməyə, hərbi quruculuğu davam etdirməyə vadar edib. Dövlətimizin başçısı ordumuzun gücləndirilməsi amili ilə bağlı müsahibələrinin birində deyib: "Burada bir neçə aspekt var. Birincisi, müharibə dövründə biz, əlbəttə, çoxlu sayda döyüş sursatından istifadə etmişik, indi biz onları bərpa etməliyik və bağlanmış yeni kontraktlar bizim üçün bunu təmin edir. Artıq silah və sursat tədarükü gedir. Növbəti məqam – müxtəlif xarakterli müasir silah sistemlərinin alınmasıdır. Biz bu məsələyə həmişə böyük əhəmiyyət vermişik. Ona görə ki, hərbi texnologiya inkişaf edir və biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik. Bildiyiniz kimi, bizə silah satmaq istəyənlərin sayı baxımından problemimiz yoxdur. Üçüncüsü – silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması. İkinci Qarabağ müharibəsi böyük qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, silahlı qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim silahlı qüvvələr bu yoxlamadan şərəflə çıxdılar...".

Prezident İlham Əliyev həmin fikirlərini davam etdirərək, bildirib ki, İkinci Qarabağ müharibəsi Azərbaycan tərəfinin bundan sonra nə etməli olduğunu, hərbi infrastrukturun hansı elementlərinin ölkəmiz üçün ya istifadə edilməməsini, ya çox məhdud formatda işlədilməsini, ya da onların zəif olmasını göstərdi.

Hazırda Azərbaycanda müasir hərbi obyektlər istifadəyə verilir, yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti daha da yaxşılaşdırılır, yeni hərbi birləşmələr-Komando Qüvvələri yaradılır. Artıq həmin hərbi birləşmələr istənilən hərbi vəzifəni icra etməyə hazırdır, onların sayı durmadan artır. Beləliklə, yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin qurulması Azərbaycanın hər an öz torpaqlarını, öz sərhədlərini qorumağa hazır olduğunu deməyə əsas verir.

Yüksək təlim keçən, yüksək iradə göstərən və Vətən uğrunda özlərini fəda etməyə hazır olan hərbçilərimiz bu briqadalarda xidmət edirlər. Bu, Azərbaycan Ordusunun gücünü daha da artırır. Bütün bunlar isə Azərbaycan Silahlı Qüvvələrini İkinci Qarabağ müharibəsi dövründə olduğundan daha güclü orduya çevrilməsini şərtləndirir.

Sonda qeyd edək ki, dövlətimizin başçısı hər zaman çıxışlarında hərbçilərimiz qarşısında yeni vəzifələr qoyduğunu bildirməklə, Ermənistana və havadarlarına bir daha mesaj ünvanlayır: Azərbaycan bundan sonra da ərazisini qoruyacaq, ordusunu gücləndirəcək, müasirləşdirəcək, istənilən təhdid və təzyiq qarşısında qəti sözünü deyəcək.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***